# Jurnalistikamıza qürur gətirən parlaq imza

## UNUDULMAZ RƏŞİD MAHMUDOVUN 90 İLLİK YUBİLEYİNƏ



**İnsan öz elmi, zəhməti və xeyirxahlığı ilə insanlıq zirvəsinə ucala bilir. Xalqına bağlı və xalqının daim xidmətində olan şəxsiyyətlər əbədiyaşar olurlar, dillərdə gəzir, ürəklərdə yaşayırlar. Azərbaycan jurnalistikasının tanınmış simalarından olan Rəşid Mahmudov da məhz belə şəxsiyyətlərdən idi. O, çox çətin və keşməkeşli bir həyat yolu keçmişdir. Rəşid İsmayıl oğlu Mahmudov 1929-cu il noyabr ayının 6-da İsmayıllı rayonunun axar-baxarlı, ecazkar Mican kəndində dünyaya göz açmışdı. Atamız İsmayıl müəllim uzun illər müəllimlik edərək böyük bir ailəni öz halal zəhmətilə dolandırardı.**

Belə bir ailədə yetişən Rəşid bu ailənin böyük oğlu kimi hələ gənc yaşlarından zəhmətə alışmış, kolxoz işlərində işləmiş və həyətyanı bostan sahələrinin becərilməsində atamıza yaxından köməklik göstərmişdi. Müharibə illəri idi. İnsanlar çox ağır, iztirablı və çətin şəraitdə yaşayırdılar. Bütün bunlarla yanaşı, Rəşid orta məktəbi fərqlənmə diplomu ilə bitirərək 1945-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Jurnalistika fakültəsinə qəbul olur. Yüksək fitri istedada və güclü yaddaşa malik olan Rəşid hələ tələbə ikən insanları düşündürən müxtəlif siyasi, iqtisadi və sosial problemlərdən məqalələr yazaraq müxtəlif mətbuat orqanlarında çıxışlar etməyə başlayır. O, universiteti də fərqlənmə diplomu ilə bitirdikdən sonra aspiranturaya daxil olur və o dövrün siyasi-ictimai baxımdan ən nüfuzlu orqanı olan "Kommunist" qəzetinə işləməyə dəvət olunur. Rəşid Mahmudov eyni zamanda, Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində mühazirələr oxuyur. Onun bu yüksək həm jurnalistikada, həm də pedaqoji sahədə istedadını görən "Kommunist" qəzetinin rəhbərliyi Rəşid Mahmudovu əvvəlcə şöbə müdiri, sonra isə redaktor müavini vəzifəsinə irəli çəkirlər. Yüksək təşkilatçılıq bacarığına, intellektual səviyyəyə malik olduğundan Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin rəhbərliyi R.Mahmudovu 1965-ci ildə Mərkəzi Komitəyə məsul vəzifəyə irəli çəkir. Rəşid müəllim 1965-1973-cü illərdə Mərkəzi Komitədə Azərbaycan mətbuatına, o cümlədən, radio və televiziyaya rəhbərlik edir. Bununla yanaşı, Bakı Ali Partiya məktəbində jurnalistika məsələlərindən mühazirələr oxuyur. O, hansı işə göndərilibsə, orada etimadı yüksək səviyyədə doğruldub. Rəşid Mahmudovun yaxşı işi heç vaxt rəhbərliyin diqqətindən kənarda qalmayıb. Onun hər sahədə bacarıqlı olmasını, xeyirxah əməllərini görən Mərkəzi Komitə rəhbərliyi onu daha yüksək vəzifələrə irəli çəkir. Şəxsən ulu öndərimiz Heydər Əliyevin tövsiyəsi ilə o, Zaqatala Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə təyin olunur. 1973-cü ildən 1980-ci ilə qədər Zaqatala rayonunda birinci katib işləyən Rəşid Mahmudovun fəallığı, işgüzarlığı sayəsində Zaqatala rayonunda bütün sahələrdə yüksək və uğurlu nəticələr əldə olunur. Respublikamızın rayonları arasında təqdirəlayiq nəticələrinə görə Zaqatala rayonu dəfələrlə sosializm yarışının qalibi olur. Zaqatala camaatının sosial şəraiti xeyli yaxşılaşır, zəhmətsevər insanlarda böyük ruh yüksəkliyi yaranır. Rəşid Mahmudovun bu rayonda gördüyü işlər bu gün də zaqatalalılar tərəfindən minnətdarlıqla xatırlanır və yüksək dəyərləndirilir. O zaman bu nailiyyətləri görən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin rəhbərliyi 1980-ci ildə Rəşid Mahmudovu yenidən Mərkəzi Komitəyə məsul vəzifəyə irəli çəkir və bir müddət keçdikdən sonra təcrübəli jurnalist və dövlət işçisini Azərbaycanın ən mötəbər və nüfuza malik mətbuat orqanı olan "Kommunist" qəzetinə baş redaktor təyin edir. 1987-ci ilə qədər bu vəzifədə işləyən Rəşid Mahmudov burada da yüksək peşəkarlıq göstərir və onun fəaliyyəti nəticəsində sevindirici nailiyyətlər əldə olunur. İşlədiyi müddətdə o, hamıdan tez işə gələr və hamıdan da sonra redaksiyadan gedərdi. Onun iş qrafiki qeyri-müəyyən idi. Axşamdan xeyli keçmiş evə gələrdi. Bütün həyatını qəzet və mətbəə işlərinə sərf edərdi. Rəşid Mahmudov dörd çağırış Azərbaycan Ali Sovetinin deputatı, Ali Sovetdə Mədəniyyət daimi komissiyasının sədri, AKP MK üzvü, Jurnalistlər İttifaqının sədri seçilmişdir. O, belə məsul vəzifələrə öz bacarığına, biliyinə, əməksevərliyinə, tapşırılan işlərə yüksək məsuliyyətlə yanaşmasına və tələbkarlığına görə irəli çəkilmişdir. Rəşid Mahmudov həyatda hər şeyi öz zəhməti, bacarığı sayəsində nail olmuşdur. 1987-ci ildə Rəşid müəllim "Azərbaycan kommunisti" və "Kommunist Azerbaydjana" jurnallarının baş redaktoru təyin olunur. 1988-ci ildə isə o, Azərbaycanın Mətbuat və İnformasiya naziri vəzifəsinə irəli çəkilir. Rəşid Mahmudovun bu dövrdə mətbuatımızda gördüyü bir çox təqdirəlayiq işlər bu gün də insanların dilində qürur və məhəbbətlə səslənir. Məhz Rəşid müəllimin işlədiyi dövrdə "Qurani-Kərim"in Azərbaycan dilinə çevrilərək nəşr edilməsində, habelə torpaqlarımızı haqsızcasına zəbt edən, xalqımıza qarşı olmazın cinayətlər etmiş ermənilərin ağlasığmaz vəhşiliklərini əks etdirən "Qanlı Yanvar" kitabının dərc edilməsi xalqımızın mənafeyini əks etdirən bir çox dəyərli və qiymətli əsərlər məhz R.Mahmudovun xüsusi əməyi, zəhməti sayəsində işıq üzünə çıxmışdır.

Rəşid Mahmudov uzun illər Azərbaycan Jurnalistlər Birliyinin sədri işləmişdir. Bu dövrdə o, böyük jurnalistlər məktəbi yaratmışdır. Onun yetirmələri bu gün nəinki Azərbaycanda, onun hüdudlarından çox-çox uzaqlarda Azərbaycanın şərəfini uca tuturlar, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırırlar. Rəşid Mahmudov milli qəzetçilik, jurnalistika ənənələrinə sadiq qalan qələm sahiblərindən idi. O deyirdi: "Heç bir çətinlik əsas olmamalıdır ki, kimsə jurnalist adına ləkə gətirsin".

Bundan sonra "Vətən" nəşriyyatının direktoru işləyən Rəşid Mahmudovun bir çox siyasi, elmi-publisistik əsərləri məhz bu nəşriyyatda nəşr olunmuşdur. Ömrünün sonuna qədər Rəşid Mahmudovun qələmi fəaliyyətdən qalmamışdır. Onun yüzlərlə elmi, elmi-publisistik məqalələri, oçerkləri, habelə onlarca elmi-kütləvi kitabları, o cümlədən "Azərbaycan jurnalistləri", "Müasir mətbuatımızın xarakteri", "Hümmət təşkilatı və onun nəşrləri", "İnsan əməyi ilə gözəldir" adlı kitabları oxucuların ixtiyarına verilmişdir, böyük oxucu auditoriyasının məhəbbətini qazanmışdır. Gənclərin çoxu bu kitablar vasitəsilə, Rəşid müəllimin peşəkarlıq təcrübəsindən öyrənərək jurnalistikada ilk addımlarını atmışdır. O, 24 adda kitabın redaktoru olmuşdur. Xalq şairi Cabir Novruz hələ Rəşid müəllimin 75 illiyinə həsr etdiyi məqalədə yazırdı: "Rəşid müəllim çox yüksək və müxtəlif vəzifələrdə işləyib, lakin o, bütün vəzifələrin zirvəsində duran "insanlıq vəzifəsinə" nail olmuşdur". Yeri gəlmişkən onu da qeyd edim ki, o, özünə heç bir yubiley keçirməmişdi. Ailəmiz, habelə Rəşidi tanıyan və sevən insanlar onun 70 illik yubileyini qeyd etmək istədik. Lakin o, buna da razılıq vermədi. Həmişə də böyük ürək ağrısı ilə deyirdi ki, nə qədər qaçqınlarımız və köçkünlərimiz var, nə qədər şəhidlər vermişik. Xalqın güzəranının belə bir ağır vaxtında yubileymi yada düşər? Amma özü istəməsə də, qəzetlər, radio, televiziya, mətbuatımız onun yubileyini yüksək səviyyədə qeyd etdilər. Rəşiddə olan sadəlik onun ailə üzvlərinə, habelə bizim hamımıza bir nümunə olubdur. Rəşid Mahmudov hansı vəzifədə çalışmasından asılı olmayaraq, daim xalqın xidmətində olmuşdur, kimsəsizlərə, yetimlərə, köməksizlərə hər zaman köməklik göstərmiş, onların qayğısına qalmışdır. Kasıbların övladını sanki öz övladı sanırdı və onlara daima qayğı göstərməyə, kömək etməyə can atırdı. Kiminsə ondan bir diləyi olurdusa, özünün ən vacib işini kənara qoyub, o kəsin diləyini düzüb-qoşardı. Onun köksündə böyük və mərhəmət hissilə dolu bir ürək vardı. Rəşidi tanıyanlar, xüsusən də ziyalılar onu məhz yüksək keyfiyyətlərinə görə sevirdilər. Bu, ən böyük qüdrətdir ki, yüksək vəzifələrdə işləyəsən və səndən həm xalq razı qala, sənə dərin hüsn-rəğbət bəsləyə, həm də dövlət və hökumət orqanları. Rəşid həm də çox yüksək insani keyfiyyətlərə malik alicənab bir şəxsiyyət idi. Rəşid Mahmudov deyərdi: "Gələn qalmaz, gedən qayıtmaz, yaxşı əməlin olsa, unutmazlar səni. Bütün böyük şəxsiyyətlər bəşəriyyətin sevimli insanlarıdır". Şərqin qüdrətli filosofu Əl-Fərabinin sözü ilə ifadə olunsa: "Xeyirli işlər görüb insanlığa xidmət göstərən şəxslər Ulu Tanrı dərgahına malikdirlər". O, heç bir zaman öz mənafeyi və özü haqqında düşünməmişdir. Onun ən yüksək amalı xalqa xidmət etmək və çətin məqamda ondan kömək istəyənlərin imdadına yetmək olmuşdur. Məhz bunlardır Rəşid müəllimi xalqa sevdirən. Minnətdarlıqla qeyd etmək istərdim ki, dövlətimiz və hökumətimiz Rəşid Mahmudovun istər partiya dövlət işindəki fəaliyyətini, istərsə də mətbuat sahəsindəki zəhmətini çox yüksək qiymətləndirib. O, Azərbaycanın Əməkdar jurnalisti adına layiq görülüb, bir neçə orden və medalla təltif olunub. Rəşid müəllim "Qızıl qələm", "Kamil sənətkar" və "Ustad" ali jurnalistika mükafatlarına layiq görülüb. Ona eyni zamanda, hərbi-vətənpərvərlik tərbiyəsi sahəsindəki fəaliyyətinə görə "Həzi Aslanov adına mükafat" verilmişdi. Rəşid Mahmudov bir neçə "Qırmızı Əmək Bayrağı" ordeni, "Rəşadətli əməyə görə", "Əməkdə fərqlənməyə görə" medalları ilə təltif olunub. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə ona "Fərdi Prezident təqaüdü" verilmişdir. Rəşid Mahmudov çox zəngin, olduqca çətin və keşməkeşli bir ömür yaşamışdır. O, daim doğma xalqına xidmət etmiş və öz xeyirxah əməlləri ilə xalqımızın dərin hörmət və rəğbətini qazanmışdı. Bu gün Rəşid Mahmudov aramızda yoxdur. O, dünyasını dəyişən günü minlərlə insan axını və maşın karvanı onu son mənzilə yola salırdı. Bu, Azərbaycan jurnalistikasının, Azərbaycan ziyalılarının ağır itkisi idi. Bu itki hələ uzun illər yaddaşlardan silinməyəcək. O məqamda çıxış edən Rəşidsevər insanlar çox düzgün olaraq qeyd edirdilər ki, bu qədər insan axınını və maşın karvanını heç bir var-dövlətlə və yüksək vəzifəylə əldə etmək mümkün deyil. Bu, Rəşid müəllimə olan əsl xalq məhəbbətiydi. Mən sözümü bu gün 90 illik anım gününü qeyd etdiyimiz qardaşım Rəşid Mahmudovun əziz xatirəsinə həsr etdiyim şeirimlə tamamlamaq istəyirəm:

*Zəngin həyat görmüş, ey müdrik insan,*
*Şan-şöhrət gətirdin insan adına.*
*Qazandın həyatda şərəfli ad-san.*
*Layiq övlad oldun Azərbaycana.*

*Sənsiz keçsə də, bu 90-cı yaş,*
*Qazanmısan böyük el məhəbbəti.*
*Hər bir mükafatdan üstündü, qardaş,*
*İnsana verilən elin qiyməti.*

**Hikmət MAHMUDOV.**